# Vətəndaş, onun firavanlığı və sağlamlığı dövlət siyasətində prioritet istiqamətdir

*Biz təqribən 5 milyona yaxın insanı geniş sosial paketlə əhatə etdik. Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləmir, ancaq dövlət tərəfindən əməkhaqqı alır. 760 min insana lazımi maliyyə dəstəyi göstərildi və onların iş yerləri qorundu. Əks təqdirdə, 760 min insan işsiz qala bilərdi. Çünki onların çalışdıqları sektorlar pandemiya nəticəsində ən böyük zərər görmüş sektorlardır.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*



***Bütün dünyada olduğu kimiAzərbaycanda da pandemiya şəraitinin və bununla bağlı sərt karantin rejiminin uzun müddət davam etməsinə baxmayaraq, ölkəmizdə bu il sosial xərclər və məşğulluğa dəstək tədbirləri ilə bağlı yüksək göstərici qeydə alınıb. Prezident İlham Əliyevin ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirdiyi müşavirədə qeyd etdiyi kimi, son aylar ərzində görülmüş işlərə baxmaq kifayət edər ki, xüsusi karantin rejiminin olmasına baxmayaraq, nə qədər böyük işlər görüldüyü anlaşılsın. Təqribən 5 milyona yaxın insanın geniş sosial paketlə əhatə edilməsi, dövlət sektorunda çalışan 900 min nəfərin böyük əksəriyyətinin faktiki olaraq işləməyən hissəsinin dövlət tərəfindən əməkhaqqı alması təmin edilib. Ötən müddətdə iş yerləri qorunub, yeni DOST mərkəzləri yaradılıb, reabilitasiya və sosial xidmət infrastrukturu müasirləşdirilib və genişləndirilib.***

Pandemiya dövründə dövlət başçısının tapşırığı ilə ünvanlı sosial yardım proqramının əhatə dairəsi genişləndirilib. Hazırda 84 min ailənin 350 min üzvü bu yardımla əhatə olunub. Həmçinin bu il şəhid ailələri və müharibə əlillərinə rekord sayda – azı 1500 mənzil və fərdi ev, 400 avtomobilin verilməsi nəzərdə tutulub.

Videoformatda keçirilən müşavirədə dövlət başçısı ölkəmizdə çox böyük sosial layihələr həyata keçirildiyini və 2020-ci ildə bu layihələrin həcminin rekord həddə çatdığını dedi: "Baxmayaraq ki, həm pandemiya, həm də neftin qiymətinin aşağı səviyyədə olması bizim gəlirlərimizə çox mənfi təsir göstərib, ancaq nəzərdə tutulmuş bir dənə də olsun sosial layihə yarımçıq qalmayıb, yaxud da ixtisar edilməyib. Qeyd etməliyəm ki, bu il rekord sayda məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunacaq. Bu il bu imkandan 7 mindən çox köçkün ailəsi faydalanacaq. Bu il rekord sayda - 1500 şəhid ailəsi, Qarabağ müharibəsi əlili mənzillərlə təmin ediləcəkdir. Ordu sıralarında qüsursuz xidmət etmiş 400-dən çox hərbçi dövlət tərəfindən pulsuz mənzillərlə təmin olunacaq. Yəni, bütövlükdə ən azı 9 minə yaxın ailə bu il dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Bütün bu mənzillər keyfiyyətli mənzillərdir, demək olar ki, onların hamısı yeni tikilmiş binalarda yerləşir. Beləliklə, əgər biz bir ailənin üzvlərini orta hesabla beş nəfər götürsək, deməli, bir il ərzində ölkəmizdə 45 min insan dövlət tərəfindən pulsuz, keyfiyyətli mənzillərlə təmin edilir. Mən tam əminliklə deyə bilərəm ki, adambaşına düşən saya görə bu, dünyada ən yüksək nailiyyətdir".

Bu, Azərbaycan dövlətinin, Prezidentimizin siyasətinin göstəricisidir. Həmçinin dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayandığının sübutudur. Bütün bunlar reallıqdır və bu reallığı başda cənab Prezident olmaqla dövlətimiz yaradır. Xüsusi karantin rejimi dövründə 65 yaşdan yuxarı ahıl şəxslərə sosial xidmətlərin göstərilməsi proqramı 15 min nəfəri əhatə edib, 100 mindən çox ailəyə 200 min ərzaq payı təqdim edilib. Ümumilikdə isə sosial təminat proqramları 500 mindən çox insana şamil edilib və bunun üçün 200 milyon vəsait yönəldilib. Həmçinin sosial müdafiə üzrə 2 milyon, əmək münasibətlərinin qorunması üzrə 1 milyon 660 min, işsizlik və karantin dövründə gəlirini itirən aztəminatlılar üzrə 700 mindən artıq vətəndaşa dəstək göstərilib.

Elektron təyinat sistemləri vasitəsilə 95 mindən çox şəxsə e-qaydada pensiya, müavinət və təqaüd təyin edilib. Onlardan 65 min e-təyinat bu ilin ötən dövründə aparılıb. Qarşıda duran hədəflərdən biri əhaliyə göstərilən 132 növ xidməti tamamilə elektron şəkildə həyata keçirməkdir. Xüsusi karantin rejimi dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ötən ildən başlayaraq elektronlaşma ilə bağlı həyata keçirdiyi işlər öz müsbət nəticəsini verib. Bu müddət ərzində vətəndaşlar məmur – vətəndaş təması olmadan xidmətlərdən yararlanmaq imkanı qazanıblar. Bu il 65 min vətəndaşa pensiya və müavinətlər üzrə proaktiv qaydada təyinat və ödəniş aparılıb, əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə 330 mindən çox elektron arayış verilib. Həmçinin birdəfəlik ödəmə ilə bağlı müraciətlər də elektron qaydada qəbul edilib və ödəniş aparılıb. Sığortaedənlər tərəfindən 2006 – 2009 - cu illərdə ödənilən, lakin işçilərin fərdi hesabları üzrə bölüşdürülməmiş 1,1 milyard manat vəsaitin 75 faizi artıq vətəndaşların fərdi hesablarına köçürülüb. Bu addım həmin fərdi hesabların sahibləri olan işçilərin gələcək pensiya təminatına, pensiya artımına, daha çox pensiya almalarına kömək edəcək.

2020-ci ildə daha 4 müavinətin təyinatının elektronlaşdırılması təmin olunacaq. Ümumən sosial müavinət və təqaüdlərin təyinatı sistemi tam proaktiv qaydada qurulacaq və bu proses gələn il başa çatdırılacaq. Ötən ildən başlayaraq 21 sosial təminat növünün (2 pensiya və 19 müavinət-təqaüd növünün) elektron təyinat sistemləri yaradılıb. Nəticədə həmin pensiya, müavinət və təqaüdlər məmur -- vətəndaş təması baş vermədən elektron qaydada təyin edilir.

Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin mühüm tərkib hissəsi əlilliyi olan şəxslərin, tibbi-sosial reabilitasiya imkanlarının artırılmasıdır. Dövlət başçısı-nın tapşırığına əsasən, ölkədə reabilitasiya infrastrukturunun müasirləşdirilməsi və genişləndirilməsi istiqamətində işlər davam etdirilir. 2019-cu ilin sonlarında Yevlax və Naftalan Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzləri, Mərdəkan Əlilliyi olan şəxslər üçün Müalicə Pansionatı, Protez- Ortopedik Bərpa Mərkəzinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Bu günlərdə Lənkəran şəhərindəki Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzi, Şəki və Xaçmaz şəhərlərindəki Reabilitasiya mərkəzləri əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Onların hər birində yüksək səviyyəli reabilitasiya şəraiti yaradılıb. Bu il, həmçinin Sumqayıt və Şirvan şəhərlərindəki Regional Bərpa Mərkəzlərinin, Şağan Əlilliyi olan şəxslərin Müalicə Pansionatının əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilməsi, eyni zamanda, sağlamlığı imkanları məhdud uşaqlar üçün reabilitasiya mərkəzləri şəbəkəsinin respublikamızın bölgələri üzrə genişəndirilməsi də nəzərdə tutulub. Bu məqsədlə cari ildə Şəmkir və Qəbələ rayonlarında da bu ilin Uşaq Bərpa Mərkəzlərinin açılması planlaşdırılır. Ümumən bu il 8 yeni bərpa mərkəzinin açılması nəticəsində reabilitasiya xidmətləri göstərilənlərin illik sayı iki dəfə artaraq 28 minə çatacaq. Onu da qeyd etmək yerinə düşər ki, Dövlət Sosial Müdafiə Fondu tərəfindən yanvar -- iyul aylarında ümumilikdə 2 milyon 571 min şəxsə pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım ödənilib. Bu istiqamətdə ötən ilin eyni dövrünə nisbətən 26,76 faiz çox və ya 707 milyon manat çox olmaqla, 3 milyard 349 milyon manat vəsait ödənilib.

İşsiz şəxslərin sosial müdafiəsində mühüm dəstək kimi, işsizlikdən sığorta ödənişi alanların sayının cari il üçün artıq 20 minə çatdırılması, bu məqsədlə fonddan cari il üzrə ayrılması nəzərdə tutulan vəsaitin 5 milyon manat artırılaraq 10 milyon manata çatdırılması nəzərdə tutulur. İşsiz və işaxtaran vətəndaşların məşğulluq imkanlarının artırılması ilə bərabər, onların kiçik sahibkarlığa çıxışına şərait yaradılmasında özünüməşğulluq proqramı mühüm rol oynayır. Proqram 2018--ci ildə 7267 nəfəri, 2019- cu ildə isə 10352 nəfəri əhatə edib. Proqrama cəlb olunanların hər biri mal və materiallar formasında aktivlərlə təmin edilməklə, öz kiçik ailə təsərrüfatlarını yaradıblar. 2020- ci ildə isə 12 min nəfərin proqrama cəlb olunaraq kiçik ailə müəssisələrinin yaradılmasıdüşünülür.

Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramına cəlb edilənlərin sayı 5100 - ə çatıb.Onlardan 970 nəfəri əlilliyi olan şəxslər, 659 nəfəri məcburi köçkünlər, 87 nəfəri şəhid ailəsi üzvləri, 78 nəfəri cəzaçəkmə müəssisəsindən azad olunanlar, 57 nəfəri isə ünvanlı sosial yardım alan şəxslərdir. Özünüməşğulluq proqramına cəlb olunan şəxslər hazırkı pandemiya dövrü ilə əlaqədar olaraq təlimlərə cəlb edilmədən onlara aktivlər veriləcək. Lakin xüsusi karantin rejimi bitdikdən sonra onların təlimlərdən faydalanmaları təmin ediləcək. Cari ildə 12 min işsiz şəxsin proqrama cəlb edilməsi işləri aparılır. Proqramın genişləndirilməsi üçün bu il fonddan bu istiqamət üzrə ayrılacaq vəsait yeni qanunla 15 milyon manat artırılaraq 78 milyon 735 min 400 manata çatdırılıb və sosial işçilərin sayının təqribən iki dəfə artırılması da planlaşdırılıb.

Qeyd etmək yerinə düşər ki, nazirlikdə elektron informasiya sistemlərindən toplanmış məlumatlar nəticəsində ölkənin məşğulluq xəritəsi yaradılır. Bu xəritə sosial və iqtisadi sahədə atılacaq addımların dinamikasını göstərəcək və məşğulluq proqramlarının hazırlanması və icrası işinin təkmilləşdirilməsinə imkan verəcək.

Dövlət Məşğulluq Agentliyi (DMA) tərəfindən Quba və Bərdə rayonlarında Peşə Hazırlığı Mərkəzləri istifadəyə veriləcək. Məqsəd həmin bölgələrdə işsiz və işaxtaran vətəndaşlar üçün müasir tələblərə uyğun peşə hazırlığı infrastrukturunun formalaşdırılması, bu sahədə xidmətin keyfiyyətinin və bölgədə yaşayan müvafiq şəxslərə əlçatanlığının artırılmasıdır. 2030-cu ilədək DMA-nın nəzdində regional peşə hazırlığı mərkəzlərinin sayı 10-a çatdırılacaq. Agentlik, həmçinin ölkə üzrə məşğulluğa dair məlumatları, ölkənin məşğulluq xəritəsini, məşğul şəxslərin reyestrini özündə birləşdirəcək "Əmək münasibətləri və məşğulluq" altsistemini hazırlayır. Aktiv məşğulluq tədbirlərinin təşkili altsisteminin əsas funksional istiqamətlərindən birini təşkil edəcək. Özünüməşğulluğa cəlb edilmiş şəxslərin reyestrinin formalaşdırılması, onlara ən uyğun biznes istiqamətinin innovativ həllərlə seçimi, növbəlilik prinsiplərinin elektron qaydada təşkili "Əmək münasibətləri və məşğulluq" altsistemi vasitəsi ilə həyata keçiriləcək. İstehsalatda baş verən bədbəxt hadisələrin reyestrinin formalaşdırılması, əməyin təşkili və mühafizəsi sahəsində tədqiqat işlərinin aparılması və yoxlamaların həyata keçirilməsi məqsədi ilə altsistemin tərkibində risk əsaslı yoxlama, elektron audit və elektron cərimə modulları da yaradılacaq.

Yenilik kimi qeyd edək ki, hazırkı pandemiya dövrü ilə əlaqədar olaraq özünüməşğulluq proqramına cəlb olunan şəxslər təlimlərdə iştirak etmədən aktivlər alacaqlar. Lakin xüsusi karantin rejimi bitdikdən sonra onların təlimlərdən faydalanmaları təmin ediləcək. Bu proqram çərçivəsində ildə 12–15 min mikro, kiçik biznes yaradılacaq. Qeyd edək ki, beynəlxalq və yerli tərəfdaşlar, ayrı-ayrı dövlət strukturları da bu proqrama aktiv şəkildə qoşulmaqdadır. Dünya Bankı, yerli banklar, BMT-nin İnkişaf Proqramı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, Kənd Təsərrüfatı Nazirliyi, KOBİA, ABAD, Qida Təhlükəziliyi Agentliyi bu proqrama qoşularaq dəstəyini verir. Özünüməşğulluq proqramının icrası, proqrama cəlb edilənlər, onların aktivlərlə təminatı barədə bütün məlumatların elektron platforma üzərindən, nazirliyin saytında tam şəkildə ictimai açıqlığı da təmin edilir.



Pandemiya dövründə sərt karantin rejiminin tətbiq edilməsinə, karantin müddətinin hələ tam bitməməsinə baxmayaraq, sosial sahədə görülmüş bu tədbirlər bir daha dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının rifahının dayandığını göstərir. Xüsusilə, onu qeyd etmək lazımdır ki, bütün zamanlarda olduğu kimi, hətta, pandemiya dövründə belə, ölkədə heç bir sosial layihənin ixtisar olunması, əksinə bu sahədə daha uğurlu nəticələr əldə edilməsi dövlət -- xalq birliyinin göstəricisidir. Prezidentin həm xalqın sağlamlığının qorunması üçün pandemiyaya qarşı apardığı mübarizə tədbirlərinin, həm həyata keçirdiyi sosial tədbirlərin əhatəsi bir daha sübut edir ki, dövlət başçısının siyasətinin önündə Azərbaycan vətəndaşı, onun firavanlığı və sağlamlığı dayanır.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*